# İGİD AKİF, EŞQ OLSUN RUHUNA!

*Əziz gəlinimiz Məlahət xanımın*
*yeganə qardaşı Akif bəyin*
*ruhuna ithaf edirəm!*

Ata-ananın yeganə oğul balası,
Üç nazənin bacının bircə qardaşı...

Kərimin, Aynurun mərd, igid atası,
Böyük xanım - xanımın, nakəm sirdaşı!

Akif! Eşq olsun sənin ruhuna, bala!
Qeyrətinlə yüksəlmisən asimana!

Vətən uğrunda candan keçən şəhidsən!
Allahla, peyğəmbər arasında mələksən!

Qoy, haqqında oxuyub, bilsinlər hamı,
Sən ey müqəddəs Azəri qəhrəmanı!

Çox halal olsun, sənin ata-anana,
Sən tək igid böyüdən vətəndaşlara!

Köksünə sığmadı o böyük ürəyin,
Çırpındı hər an qayğısı ilə vətənin.

Dedin: - "Ana, mən gedirəm vuruşmağa,
Əks halda, yaylıq bağlayaram başıma"!

Akif, yaşın artıq, gözün zəif idi,
Hərbiyə getmək sənə rəva deyildi...

İgid bala, sən istəyindən dönmədin,
Orduya könüllü, çox çətin düzəldin!

Ehtiyac çox olduğundan silahlara,
Nəzəryədən təlim keçdin batalyona.

Gənc ordunu ön cəbhəyə göndərəndə,
Zabit olaraq sən də getdin onların önündə!

Oğul, bu münvalla cəbhəyə yol tapdın,
Vuruşdun hünərlə, vətəni qorudun!

Qanlı cəbhədə düşmənə zərbə vurdun,
Ödəndi vicdanlı vətəndaşlıq borcun!

Çox əfsus ki, fələk fırlatdıçarxını,
Alt-üst etdi ömrünün xoş dövranını!

Allah yazdığı acı, yarımçıq yazını,
Amansız oldu, vermədi muradını!

Günlərin birində, kəşfiyyat işində,
Düşmən tankını sən ələ keçirəndə...

Öz sərhədinə çatıb, çıxanda lyukdan,
Düşmən atəşinə tuş qaldın arxandan!

Bir oğul, tək qardaş, bir sirdaş, bir ata,
Qəhrəman Akif, şəhid oldu vüqarla!!!

Oğlun Kərim, qızın Aynur, nəvən Fidan,
Səninlə fəxr edir, ey igid qəhrəman!

İtməyəcək nahaqdan tökülən qanlar,
Ah tutacaq düşmənlərimiz qan qusacaq!
Dövlətləri qalmayacaq, dağılacaq!
Torpaqlarımız özümüzün olacaq!

Eşq olsun, cənnətlik müqəddəs ruhuna!
Eşq olsun, möhtəşəm vicdanlı vüqarına!

Eşq olsun, xiyabanında yatanlara!
Eşq olsun, səni qəlbdə yaşadanlara!

Rahat yat! Ana vətən torpağında,
Pak ruhunun oylağı, cənnət bağında!

**Ağlayın... Şəhidlər**

Odlu Günəş, Nur saçan,
İşıqlı Ay!
Dəryalar, dənizlər, gur-gur
Axan çay!
Bütün dünya, canlı həyat,
Eşit vay!
Ağlayın keşikçi vətən oğlu,
Şəhidləri...
Vaxtsız solan qönçə çiçək nakam-
İgidləri!
Ana, bacı, sevgisinə həsrət qalan-
Gəncləri!
Göy üzüqaralsın, şimşəklər çaxsın,
Buludlar ağlasın, leysanlar yağsın,
Axar çaylar, sellər, ellər ağlasın!
Ananın göz yaşı, ahı-naləsi,
Saxtakar düşməni qanına boyasın!
Taptaqdan qurtarsın torpaqlarımız,
İgidlər qanı yerdə qalmasın!
Rahat uyusun, ruhları nurlansın,
Silinsin yer üzündən Ermənistan,
Ölkəmiz qurtarsın şəhid yasından!

1989-œ Ł°.

**P.S.** ***Haqq, ədalət qalib gəldi. Qudurmuş düşmən güllələndi, ayaq altına sərildi, torpaqlarımızdan təmizləndi. Dövlətin qalacağı şübhəlidi, xalqları ağlar qalıb, dilənə-dilənə köçməlidi.***
***Əziz dostlar, oxucular!***
***"Ağlayacaq düşmənimiz" adlı bu şeiri 1993-cü ildə olanı və necə olacağı görərək, yazmışam!***



*Zərəngiz ŞIXLI*

Kredo .- 2021.- 18 noyabr.- S.14.